

İLQAR ƏLİYEV,
Yasamal rayon Bələdiyyəsinin sədri

# HEYDƏR ƏLİYEVİN VƏTƏNDAŞ CƏMİYYƏTİ QURUCULUĞUNA VERDİYİ TÖHFƏLƏR

Azərbaycanda müstəqil, demokratik dövlət quruculuğunun təşəkkül tapması xalqımızın böyük oğlu Heydər Əliyevin adı ilə bağlıdır.

Hakimiyyətin qanunverici,məhkəmə və icraedici funksiyalara bölünməsi Azərbaycan Respublikasının 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilən Konstitusiyasında təsbit olunmuşdur. Müstəqil dövlətimizin tarixində son dərəcə böyük əhəmiyyətli olan Konstitusiyamızın qəbul edilməsi ilə bağımsızlığımızın əbədi, suverenliyimizin təminatlı olması, Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması prosesinə başlanmışdır.

Demokratiya – xalqın hakimiyyəti anlayışını verdiyindən, demokratik cəmiyyət vətəndaşın bütün hüquq və azadlıqlarının qorunmasına zəmanət verməklə bərabər, həm də onun yüksək rufahına, iqtisadi, sosial, mənəvi təminatına şərait yaradır.

Xalqımızın tarixinin ən təlatümlü günlərində hakimiyyətə gəlməklə vətəndaş müharibəsinin qarşısını alan Heydər Əliyevin vətəndaş cəmiyyəti quruculuğu prosesinə başlanması üçün ilk növbədə ölkədə sabitliyi bərpa etmək, istilaçı düşmənin ölkənin içərisinə hücumunun qarşısını almaq, dünya ictimaiyyətinin diqqətini ölkəmizə yönəltmək, strateji əhəmiyyət kəsb edən resurslardan istifadə etməklə, Azərbaycanı iqtisadi, sosial, mənəvi böhrandan xilas etmək kimi çətin vəzifələr dururdu.

Heydər Əliyev hələ 1993-cü ilin iyun ayında xalqın israrlı və təkidli tələblərinin nəticəsi olaraq respublika rəhbərliyinə qayıdarkən belə demişdir:

«Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yer verilməlidir. Azərbaycan Respublikasının Konstitusiyasının pozulmasına, qanun pozuntusuna yol verilməməlidir.

Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır. Yəni bizim respublikamız bir sənə bundan öncə başladığı yola davam etməlidir. Bu düzgün yoldur, doğru yoldur, bu yolla bizim respublika daha qətiyyətlə getməlidir. Əmin ola bilərsiniz ki, mən bu yola daim sadiq olacağam» (15 iyun, 1993-cü il, Milli Məclisin iclasında verilən bəyanat).

Heydər Əliyev bu bəyanatına sadiq qalaraq Azərbaycanda demokratik dövlət quruculuğu prosesinin bərqərar olması üçün bütün təsisatların yaranmasına xüsusi diqqət yetirmiş və buna nail olmuşdur.

Vətəndaş cəmiyyətinə gedən yol demokratik prinsiplərin bərqərar olunmasından başlayır. Demokratik dövlət yaratmaq üçün ilk növbədə güclü iqtisadiyyata malik olmaq lazımdır.

Möhtərəm Prezidentimiz Heydər Əliyev «İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir» tezisini irəli sürməklə hər şeydən əvvəl doğma yurdumuzu düşdüyü ağır böhrandan qurtarmaq üçün ölkənin iqtisadi inkişafına nail olmağın zəruriliyini irəli sürür. 1994-cü ildə «Əsrin müqaviləsi» neft kontraktının bağlanması Azərbaycanın iqtisadi dirçəlişinin əsasını qoymaqla bərabər, bir çox digər problemlərin uğurlu həlli üçün də zəmin yaratdı.

1994-1995-ci ilin ən ağır siyasi kataklizmlər dövründə Heydər Əliyevin cəmiyyətdə olan nüfuzu və həyata keçirdiyi uzaqgörən siyasət Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına təminat vermişdir.

1995-ci ildə keçirilən ilk demokratik parlament seçkiləri və Konstitusiyanın qəbul edilməsi Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğuna rəvac verən demokratik prinsiplərin bərqərar olması üçün zəmin yaratmışdır.

Özünüidarə sisteminin tətbiqi demokratik, hüquqi dövlətin əsas prinsiplərindən biri olmaqla yanaşı, həm də vətəndaş cəmiyyəti quruculuğunu özündə ehtiva edir.

12 dekabr 1999-cu ildə ölkəmizin tarixində ilk dəfə olaraq yerli özünüidarəetmə orqanı – bələdiyyələrə seçkilər keçirilmişdir.

Demokratik ölkələrin çoxəsrlik təcrübəsindən qaynaqlanan və ölkəmizin özünəməxsus inkişaf xüsusiyyətlərini nəzərə almaqla keçirilən bələdiyyə seçkiləri nəticəsində yerli özünüidarəetmə sahəsində həqiqi demokratik sistem yaradılması imkanı əldə edilmişdir.

Azərbaycan Respubilkasının Prezidenti Heydər Əliyevin uzaqgörən siyasətinə və zəngin dövlətçilik təcrübəsinə istinadən həyata keçirdiyi islahatlar xalqın fəallığının artmasına, demokratik ənənələrin yaranmasına, siyasi plüralizmin, iqtisadi və siyasi azadlığın, müstəqillyin, təşəbbüskarlığın təmin olunmasına şərait yaratmışdır.

İnkişaf etmiş vətəndaş cəmiyyətinin mühüm atributu olan yerli özünüidarəetmənin əsas məqsədi əhalinin rifahının təmin edilməsi naminə yerlərdə fəaliyyətin onların özü tərəfindən təşkilatlanıb həyata keçirilməsidir.

Bu sistem dövlətin qüvvədə olan qanunlarına və digər qanunverici aktlarına müvafiq olaraq yerli əhəmiyyət kəsb edən məsələlərin həllini həyata keçirir və öz ətrafında insanları birləşdirərək onları müəyyən məqsədləri həyata keçirən sosial topluma çevirir.

Möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin bazar iqtisadiyyatına əsaslanan sosial yönümlü cəmiyyətin qurulması yönümündə apardığı məqsədyönlü fəalyyətin nəticəsində Azərbaycanda demokratik prinsiplərə əsaslanan yerli özünüidarəetmə sistemi inkişaf etməkdədir.



Yerli özünüidarəetmə sistemin təbliği nəticəsində yeri əhəmiyyət daşıyan bütün məsələlərin həlli üçün məsuliyət vətəndaşın öz üzərinə qoyulur, konkret inzibati ərazidə yaşayan insanlar iqtisadi, sosial, mədəni inkişafın təminatı üçün özləri yollar arayırlar.

Azərbaycan Respublikası Avropa Şurasının tamhüquqlu üzvü olduqdan sonra Azərbaycanda fəalyyət göstərən bələdiyyələr Avropanın yerli və Regional Hakimiyyətləri konqresində təmsil olunmaq imkanı qazanmışlar.

Xalqımızın dahi oğlu Heydər Əliyevin gərgin əməyi və böyük təşkilatçılıq bacarığı sayəsində Avropaya və dünyaya inteqrasiya edən Azərbaycanda vətəndaş cəmiyyətinin bərqərar olunması prosesi gündən-günə genişlənir.

Vətəndaş cəmiyyətinin digər strukturları siyasi partiyalar, qeyri-hökumət təşkilatları ilə birgə bələdiyyələrin də əsas məqsədi ölkəmizin müstəqil, demokratik inkişafına xidmət göstərməkdən ibarətdir.

Azərabycan atıq on ildir ki, möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin rəhbərliyi altında böyük inkişaf yolu ilə inamla irəliləyir. Bu on ildə ölkəmiz görünməmiş uğurlar əldə etmiş, dağılmaqda olan iqtisadiyyatını dirçəltmiş, bazar iqtisadiyyatına daha dərindən qoşulmuş, beynəlxalq qurum və birliklərin tamhüquqlu üzvü olmuş, dünya miqyasında tanınmışdır.

Azərbaycan dünya əhəmiyyətli, geniş miqyaslı kontraktlara qoşulmuş, Bakı-Ceyhan layihəsi, Beynəlxalq İpək Yolu-Traseka proqramında özünün həlledici nüfuza malik olduğunu təsdiq etmişdir. Bütün qlobal miqyaslı layihələrin əsas məqsədli hər bir soydaşımızın maraqlarının ödənilməsinə xidmət etmək, onun təminatını yüksəltməkdir.

Xalqımızın müdrik oğlu Heydər Əliyev ölkəmizdə sabitliyi qoruyub saxlamaqla vətəndaş cəmiyyəti quruculuğu üçün geniş imkanlar yaratmışdır. Heydər Əliyev bu barədə belə demişdir: «Əgər respublikada sabit ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz».

Yalnız güclü dövlət öz vətəndaşlarının rifahının güclənməsinə, sosial- iqtisadi, ictimai-siyasi problemlərin həll olunmasına zəmanət vermək iqtidarındadır. Dövlətin gücləndirilməsi üçün əsas şərt olan sabitlik və iqtisadi tərəqqi nəticəsində ölkədə köklü demokratik islahatların həyata keçirilməsi gerçəkləşdirilmişdir.

Azərbaycanda söz azadlığının qorunması, irqindən, dilindən, dinindən, milliyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquqlarına təminat verilməsi Prezident Heydər Əliyevin həyata keçirdiyi dövlət siyasəti sayəsində əldə olunmuşdur.

Demokratik və hüquqi dövlət quruculuğu prosesinin Azərbaycanda intişar tapması ölkə başçısı Heydər Əliyevin gərgin əməyinin və gördüyü tədbirlərin məntiqi nəticəsidir. Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğuna əngəllər törədən müharibə vəziyyətinin olmasına, torpaqlarımızın bir hissəsinin işğal altında qalmasına, köçkünlərin sayının 1 milyona çatmasına rəğmən ictimai-siyasi sabit-

liyin bərqərar edilməsi, mənəvi-psixoloji vəziyyətin sağlamlaşdırılması Prezident Heydər Əliyevin böyük dövlətçilik bacarığının bəhrələridir.

Xalqın yüksək siyasi mütəşəkkilliyi ilə müşahidə olunan parlament, bələdiyyə, prezident seçkiləri cəmiyyətdə baş verən proseslərin gerçək demokratik mustəviyə keçməsindən xəbər verir. Müstəqil dövlətin siyasi və hüquqi əsaslarının möhkəmləndirilməsi nəticəsində görülən ciddi və uzaqgörən tədbirlər vətəndaş cəmiyyətini stimullaşdıran amillərə çevrilmişdir. İnsanların azad siyasi və ictimai fəaliyyəti üzərində qurulan demokratik təsisatların şəbəkəsi genişləndikcə Azərbaycanda çoxpartiyalı sistem bərqərar olunmuş, yerli və regional özünüidarə təsisatları cəmiyyətə daha dərindən nüfuz etməyə başlamışdır. Azərbaycanda Yeni Azərbaycan Partiyasının aparıcı qüvvə olduğu çoxpartiyalı sistemin formalaşması prosesi Heydər Əliyevin müdrik və qurucu fəaliyyətinin nəticəsidir. Bu gün Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda sivil, Konstitusiya və qanunlar çərçivəsində fəaliyyət göstərən bir cəmiyyət qurulmuşdur.

Bu cəmiyyətdə konstruktiv, qanunlara zidd olmayan fəaliyyət göstərən, demokratik, vətənpərvər düşüncənin daşıyıcısı olan müxalifət qüvvələrinə geniş meydan verilmişdir və onlarla əməkdaşlığa hər cür şərait yaradılmışdır. Heydər Əliyev siyasi məktəbinin ən layiqli nümayəndələrindən biri olan İlham Əliyevin rəhbərliyi altında Avropa Şurasında təmsil olunan Azərbaycan Parlamentinin iqtidar və müxalifət nümayəndələrindən ibarət olan deputat qrupunda bu cür əməkdaşlığın səmərəli fəaliyyətinin nəticələri özünü göstərir. Vətəndaş cəmiyyəti quruculuğu prosesinə Heydər Əliyev dühasının bəxş etdiyi töfhələr artıq öz bəhrəsini verməkdədir.